**Dövlət İmtahan Mərkəzinin 2023-2024-cü tədris ili üçün doktoranturaya və dissertanturaya xarici dil üzrə təşkil etdiyi qəbul imtahanında iştirak etmək üçün qeydiyyat**

**Təlimat**

Elektron ərizə ilə iş üçün namizəd **ekabinet.dim.gov.az** internet səhifəsində **"Şəxsi kabinet"** yaratmalı və həmin kabinetin pul hesabına tələb olunan pul vəsaitini (xarici dil imtahanından azad olunanlar istisna olmaqla) əlavə etməlidir. Namizəd yalnız **"Şəxsi kabinet"**inin istifadəçi adı və parolundan istifadə etməklə ərizə doldurub onu təsdiqləyə bilər.

Namizəd **eservices.dim.gov.az/erizedok/erize** internet səhifəsinə daxil olur, login bölməsində "**Şəxsi kabinet**"inin istifadəçi adını və parolu müvafiq sahələrə daxil edib "**Daxil ol**" düyməsini basır.

Elektron ərizə forması şəxsi məlumatlar, təhsil haqqında məlumatlar və imtahan məlumatları təsvir edilən bölmələrdən ibarətdir.

**"Şəxsi məlumatlar"** bölməsində namizəd heç bir dəyişiklik edə bilməz (bu məlumatları yalnız "Şəxsi kabinet"də dəyişmək olar). Bu bölmədə yalnız elektron poçt ünvanını qeyd edilməlidir.

**"Təhsil haqqında məlumatlar"** bölməsində namizəd magistratura səviyyəsində, yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim- mütəxəssis) təhsili haqqında məlumatları müvafiq bölmələrdə qeyd etməlidir. Magistratura (tibbi təhsildə həkim- mütəxəssis) təhsilini Azərbaycan Respublikasında bitirən namizədlər haqqında məlumatlar Tələbə-Məzun Dövlət İnformasiya Sistemində (TMMS) olmalıdır. Bu bölmədəki "TMMS" düyməsini sıxmaqla həmin məlumatları görmək olar. Əgər namizədin təhsili haqqında məlumatlar TMMS- də aşkar edilməsə, namizəd müvafiq bölmədə diplomun surətini yükləməlidir. Yalnız bundan sonra namizəd ərizəsini təsdiq edə bilər.

**Diqqət! Etibarsız sənəd sistemə yüklənməsi aşkar edildikdə ərizənin təsdiqi ləğv edilir.**

**"İmtahan məlumatları"** bölməsində namizədin imtahan verəcəyi bölmə, imtahan verəcəyi xarici dil və xarici dil sertifikatı haqqında məlumatlar əks edilir. Əgər namizədin imtahan verəcəyi xarici dil üzrə qüvvədə olan (tələblərə uyğun) sertifikatı varsa, onun haqqında məlumatı xarici dil sertifikatı sahəsində qeyd etməli və sertifikatı sistemə yükləməlidir. Xarici dil sertifikatı DİM tərəfindən yoxlanıldıqdan sonra namizədə məlumat verilir və namizəd ərizəsini təsdiq edə bilər.

**Diqqət! Xarici dil üzrə qüvvədə olan və CEFR-ın B2 və ya daha yüksək səviyyəsinə müvafiq beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, Cambridge English Qualifications, TestDaF, DELF, DALF, STANAG) malik olanlar sertifikatın hər iki üzünün surətini JPG faylda (hər faylın ölçüsü 300 kb-dan çox olmamaqla) qeydiyyat səhifəsində yükləməlidirlər.**

Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir. Təqdim edilmiş sertifikatların həqiqiliyi və qüvvədə olması yoxlanıldıqdan sonra onların sahibləri xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Sertifikatı uyğun omayan namizədlər şəxsi kabinetin pul hesabına imtahanda iştirak üçün tələb olunan 110 (yüz on) manat məbləğində pul vəsaitini əlavə etməklə imtahanda iştirak edə bilərlər.

Magistratura (tibbi təhsildə həkim- mütəxəssis) təhsilini Azərbaycan Respublikasında bitirən namizədlər ərizələrini **özləri** təsdiq edirlər.

**Diqqət! İmtahana yalnız ərizəsi təsdiq edilən namizədlər buraxılacaqlar.**